Global Spectrum of Research and Humanities
ISSN: 3007-9136
Vol. 2 No. 4 (2025): Autumn

MƏDƏNÇIXARMA SƏNAYESİNİN İQTİSADİYYATI VƏ MÜASİR DÖVRÜN TƏLƏBLƏRİ

[1] **Mehdi Baghirov**

https://doi.org/10.69760/gsrh.0250203005

Xülasə:

Tədqiqatın məqsədi – ölkənin iqtisadi sisteminin formalaşdırılmasında mədənçıxarma sahəsinin yeri və rolu haqqında informasiyanın ümumiləşdirilməsi, onun ümumi və spesifik, ixtisaslaşdırılmış istiqamətlər üzrə tədqiqatlara məruz qoyulması, dinamik irəliləmə və tərəqqi vəziyyətində meyllənmənin aşkarlanması və dəyərləndirilməsi.

Tədqiqatın metodologiyası – müşahidə, qruplaşdırma, müqayisəli təhlil, induksiya, deduksiya, mütləq və nisbi kəmiyyətlər, balans metodlarından istifadə olunması.

Tədqiqatın nəticələri – əyani təsvir vasitələri bazasında araşdırma obyektləri haqqında müfəssəl informasiyanın müəyyən edilməsi, reallıq və dəqiqlik dərəcəsi daha yüksək olması məqsədlərə uyğun hesab edilən sahə və istiqamətlərdə iqtisadi-riyazi və digər təyinatlı hesablamalara müraciət olunmanın əsaslandırılması, tədqiqatlara əlavə alət və mexanizmlərin cəlb olunmasının mümkünlük dərəcələrinin qiymətləndirilməsi.

Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti – mədənçıxarma sənayesinin ölkə iqtisadiyyatı üçün əhəmiyyətini nəzərə alaraq onun tərkib elementləri üzrə diversifikasiya addımlarının atılması, sahənin prioritet yön və istiqamətlərinin kompleks müşahidə altına alınması, onlarla bağlı dinamik hərəkətlilik baxımından iqtisadi informasiyanın toplanılması.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – zəngin tərkiblə fərqlənən mədənçıxarmanın prioritet istiqamətləri üzrə iqtisadi müstəvidə çoxamilli qiymətləndirmə və təhlilə məruz qoyulması, bəhs olunan situasiyaların innovativlik və inklüzivlik proseslərinə nə dərəcədə açıq olduğunun müşahidə altına alınması.

Açar sözlər:
sənaye sahələri, mədənçıxarma sənayesi, istehsal müəssisələri, rəqəmsallaşma, innovasiya

Giriş.

Müasir cəmiyyət, onun sosial-psixoloji inkişafı və iqtisadi tərəqqisi çoxsaylı araşdırma məsələ və problemlərini, həmçinin yaranmış situasiyalardan çıxış yollarını özündə təmərküzləşdirməkdədir. Ölkənin iqtisadi sistemi, onun fərqli amillər bazasında tərənnüm olunan quruluşu sahələrin lokal fəaliyyəti ilə yanaşı onların qarşılıqlı əlaqələri və asılılıqları haqqında təsəvvür yaratmaqdadır. Müxtəlif təsnifatlara məruz qalan sənaye bir sıra təsnifləşdirmə əlamətlərinə məruz qalmaqdadır

[1] Baghirov, M. S. Doctor of Economic Sciences, Azerbaijan State Oil and Industry University (ADNSU), Azerbaijan. ORCID: https://orcid.org/0009-0000-4111-8978.

ki, onların sırasında istehsal obyekti və subyekti, mülkiyyət forması, mənsubiyyət, əldə olunma vəsaiti və forması kimi əlamətlər mühüm rol oynamaqdadır.

Tədqiqatda bizi maraqlandıran ilk ardıcıllıq "iqtisadi sistem → sənaye" hesab olunmaqdadır. İnkişaf etmiş və etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, iqtisadi manqaların ardıcıl əlaqə və asılılıqlarının məqsədyönlü şəkildə ifadə olunması özünün spesifikasiyaları gözlənilməklə həyata keçirilməkdədir. Məqalədə sənaye sahəsinə müraciət etməmizin əsas səbəbi – müvafiq sferanın ölkə iqtisadiyyatı üçün əhəmiyyətindən irəli gəlməkdədir.

Miqyasından və istifadə reallıqlarından asılı olaraq mədənçıxarmanın bəhs olunan yönləri xammal növlərinin hasilatı və sonrakı emalını həyata keçirməkdədir. Mədənçıxarmada daxili istehlak və ya ixrac məqsədilə istifadə olunan hasilat həcmləri ilk növbədə "tələb – təklif" tarazlığının bazasında, miqdar-məbləğ şəkilləndirilməsində tərənnüm olunmaqdadır. Xam neft və qaz kondensatından başqa araşdırmaya məruz buraxılan sferaya qızıl, gümüş, mis, dəmir və digər faydalı qazıntı növləri də daxil edilməkdədir. Bəhs olunan yöndə həmin elementlərin iqtisadi dövriyyəyə yararlılıq dərəcəsi çoxsaylı konfiqurasiyalar üzrə araşdırılmaqda və qiymətləndirilməkdədir (Bağırov, 2023, s. 39).

Digər tərəfdən, tədqiqatın formalaşdırılması nümunəvi qaydada bir sıra mərhələləri əhatə etməkdədir (sxem 1).

Sxem 1. Ölkənin iqtisadi sistemi və sənayenin tərkib elementləri



Mənbə: Kərimov, K. S., & Zeynalova, S. C. (2024). *Layihələrin idarə edilməsi*. ADNSU Nəşriyyatı.

Sxem 1-dən də göründüyü kimi, ölkənin iqtisadi sistemin təsvirindən mədənçıxarma sənayesinə və onun tərkib hissələri olan metal filizlərin hasilatı və mədənçıxarma sənayesi sahəsində xidmətlərin göstərilməsinə qədər olan yol mürəkkəbdir. Dörd pilləli "mənzərənin" yaranması altsistemlərin qarşılıqlı əlaqə və asılılıq şəraitində araşdırılmasını tələb etməkdədir.

Sənaye sahəsinin və azərbaycan respublikasinda onun təşəkkülü

Qeyd olunduğu kimi, sənaye – ölkənin iqtisadi sisteminin mühüm sahəsini (həmçinin sferasını) təşkil etməkdədir. Milli əmlakın formalaşmasında xüsusi rol oynayan, istər özü, istərsə də digər sahələrin tammənalı fəaliyyətinin təmin edilməsində "yaradıcı" fəaliyyətlə təmsil olunan müvafiq sahə ölkə daxilində fəaliyyət göstərən digər sahə vəonların tərkib elementlərinin fəaliyyətinin təşkilində özünəməxsus rol oynamaqdadır. Ölkələrin iqtisadi sistemlərinin təşkili və ahəngdar fəaliyyətlərin təmin edilməsində sənayenin rolu danılmazdır. İstehsal və qeyri-istehsal təyinatlı uzunmüddətli aktivlərin yaradılması yolu ilə ölkənin iqtisadi gücü və qüdrətinin yüksəlməsinə müstəqim və qeyri-müstəqim şəkildə səbəb olan sənaye sosial sferanın inkişafında da mühüm rol oynamaqdadır (Litvinenko, 2023, s. 294).

Onun araşdırılması istər ümumilikdə makroiqtisadi aspektdə, istərsə də fərdi makroiqtisadi istiqamətlər üzrə həyata keçirilməlidir. Konkret hesablamalara keçməzdən əvvəl cədvəl 1-də əks olunmuş makroiqtisadi nəticələrə diqqət yetirmək məqsədəuyğun olardı.

Cədvəl 1.Sənaye sektoru üzrə əsas makroiqtisadi göstəricilər

Göstəricilər		2019	2020	2021	2022	2023
1.	Əlavə dəyər, cari qiymətlərlə, milyon manat	33885,9	24732,6	39956,6	68732,6	49759.2
2.	Ümumi mənfəət, cari qiymətlərlə, milyon manat	30489,5	20875,2	35704,4	64187,1	44824.9
3.	Xalis mənfəət, cari qiymətlərlə, milyon manat	28628,9	18280,8	33258,5	61573,7	42388.5
4.	Əsas kapitala investisiyalar, milyon manat	9258,0	9065,3	7507,3	7172,1	8405,7

Mənbə: stat.gov.az/source/industry/az/002-003

Cədvəl 1-in məlumatlarına əsaslanaraq qeyd edə bilərik ki, cəmlənən məlumatlar vasitəsilə sənaye sektoru üzrə fərqli araşdırmaların və onlarla əlaqəli hesablamaların icrası mümkündür. Onların sırasında ilk növbədə aşağıdakıları xüsusilə qeyd etmək mümkündür:

✓ *"obyektlərin" dinamika qaydasında vəziyyətlərinə aydınlıq gətirilməsi*. Yaddan çıxarıl-mamalıdır ki, hər hansı obyektin vəziyyətinə "sükunət" vəziyyəti kimi yanaşılması tədqiatın natamam şəkildə icra olunmasına şərait yaratmaqdadır. Tədqiqatların dinamika qaydasında müşahidə altına alınması tədqiqat obyekti ilə bağlı mütləq, nisbi, bəzi hallarda isə hər iki məzmunlu kəmiyyətlərin xidmətlərindən istifadə etməklə ümumiləşdirilmiş, sistemləşdirilmiş, kompleksləşdirilmiş, həmçinin ahəngdarlıq tələblərinə cavab verən nəticələrin ortaya çıxarılmasına səbəb olmaqdadır (Мокер, 2023, s. 91).

✓ *ümumi mənfəətin illər üzrə hansı hissəsinin xalis mənfəət şəklində mövcud olması*. müvafiq bənd eyni zamanda ümumi iqtisadi müstəvi ilə yanaşı maliyyə təməlli müstəvinin sintezi haqqında məlumatları daşımaqdadır. Belə ki, mənfəət – hər bir təsərrüfat subyektinin fəaliyyətinin mühüm yekun nəticəsi kimi çıxış etməkdədir. Digər tərəfdən, müəssisələr tərəfindən əldə olunan mənfəət

iqtisadi-təşkilati, hüquqi-tənzimləmə, uçot-təhlil və audit, konsaltinq, fraksiyalaşma və s. sferalarda çoxsaylı cari və perspektiv fəaliyyətlərin təcrübədə reallaşma mənbəyi rolunu oynamaqdadır (Makgret & Makmilan, 2022, s. 156).

✓ *əsas kaptala yönələn investisiyaların artım templərinə aydınlıq gətirilməsi*. Bəhs olunan fikir və onun la əlaqəli irəli sürülən mülahizələr özünün çoxşaxəliliyi, və fərqli əhəmiyyət məzmunları ilə fərqlənməkdədir. Belə ki, ümumilikdə sənaye sahəsinin maliyyə və digər imkanlarına əsaslanaraq ilk növbəsə iqtisadi və sosial sferalarda sistemli işlərin icrasına imza atmaq mümkündür. Haqqında fikir yürüdülən istiqamətlərin daxili tərkib elementlərinin nə dərəcədə zəngin olmasını, inklüzivlik platforması ilə vəhdət halında nəzərə almaqla həqiqi təcrübi imkanların qiymətləndirilməsi diapazonunun əhatəliliyi haqqında mütərəqqi fikir və tövsiyələrin bildirilməsi mümkündür (Kərimov & Zeynalova, 2024, s. 192).

Müşahidə olunan 2019 və 2023-cü illərin müqayisəli araşdırıması göstərir ki:

1. *əlavə dəyər üzrə* artım – 15873,3 milyon manat (49759,2 – 33885,9) və ya 46,8% (49759,2 : 33885,9);
2. *ümumi mənfəət üzrə* artım – 14335,4 milyon manat (44824,9 – 30489,5) və ya 47,0% (44824,9: 30489,5);
3. *xalis mənfəət üzrə* artım – 13759,6 milyon manat (42388,5 – 28628,9) və ya 48,1% (42388,5 – 28628,9);
4. *əsas kapitala investisiyalar üzrə* geriləmə – 852,3 milyon manat (8405,7 – 9258,0) və ya 9,2% (1 – 8405,7 : 9258,0);
5. 2019-cü ildə ümumi mənfəətin tərkibində xalis mənfəətin payı 93,9% təşkil etdiyi halda, 2023-cü ildə 94,6%-ə bərabər olmuşdur.
6. əldə olunmuş ümumi mənfəətdən əsas kapitala investisiya kimi 2019-cu ildə 30,4%, 2023-cü ildə 18,8% təşkil etmişdir (geriləmə 11,6%).

Yerinə yetirilmiş hesablamalar ilk öncə yaradılmış əlavə dəyər göstəricisi üzrə ümumi mənfəətlilik payının xüsusi çəki etibarı ilə 0,2% artığına dəlalət edir ki, bu da intensivliyin təzahürü kimi çıxış etməkdədir. Cədvəl məlumatlarının lokal araşdırılması göstəricilər 2022-ci ilin kəskin artımlarla müşayət olunduğunu nümayiş etdirməkdədir. Cədvəl kəmiyyətlərinin silsiləvi qaydada araşdırılması sənaye sektorunda "üfuqi" müstəvidə aşağıdakı yeni nisbi sıraların yaranmasına səbəb olmaqdadır:

a) Əlavə dəyər üzrə: 2020/2019 – geriləmə 27%, 2021/2020 – artım 61,6%, 2022/2021 – artım 72,0%, 2023/2022 – geriləmə 27,6%;
b) Ümumi mənfəət üzrə: 2020/2019 – geriləmə 31,5%, 2021/2020 – artım 71,0%, 2022/2021 – artım 79,8%, 2023/2022 – geriləmə 30,2%;
c) Xalis mənfəət üzrə: 2020/2019 – geriləmə 36,1%, 2021/2020 – artım 81,9%, 2022/2021 – artım 85,1%, 2023/2022 – geriləmə 31,2%;
d) Əsas kapitala investisiyalar üzrə: 2020/2019 – geriləmə 2,1%, 2021/2020 – geriləmə 17,2%, 2022/2021 – geriləmə 4,5%, 2023/2022 – artım 17,2%;

Daha aydın təsvir və mənimsəmə məqsədilə diaqram 1-ə müraciət etmək yerinə düşərdi.

Diaqram 1-in illər üzrə nisbətləri silsiləvi qaydada ifadə edən görünüşü ilk növbədə aşağıdakı informasiyanın qənaətinə varmağa imkan yaratmaqdadır.

a) Müşahidə altına alınan rüblər sırasında göstəriciləri ən aşağı səviyyədə olan period birinci (2020/2019), ən yüksək səviyyədə olan isə üçüncü (2022/2021) olmaqdadır;
b) İkinci və üçüncü dövr ərzində əsas maliyyə göstəricilərində (investisiyalar istisna olmaqla) artım müşahidə olunduğu halda, əsas kapitala qoyuluşlar ancaq dördüncü perioda təsadüf edir ki, bu da əsas məhsul və maliyyə resurslarının vəziyyətində geriləməyə cavab olaraq qiymətləndirilməlidir.

Diaqram 1. Makroiqtisadi göstəricilər üzrə nisbi müqayisə səviyyələri



Ümumilikdə sənaye, o cümlədən mədənçıxarma sahəsində icra olunan iqtisadi tədqiatlarda mülkiyyət formasına aidiyyat məsələsi özünəməxsus yer oynamaqdadır. Cədvəl 2-də ümumiyyətlə sənaye, o cümlədən mədənçıxarma sahəsində məhsul (iş, xidmət) sahəsində yer almış geriləmənin əsasən hansı mülkiyyət komponenti hesabaına baş verməsi hesabına mümkün olmaqdadır.

Cədvəl 2. Sənaye məhsulunun (işlərin, xidmətlərin) mülkiyyət növləri üzrə bölgüsü, milyon manat

Göstəricilər		2019	2020	2021	2022	2023
1.	**Bütün mülkiyyət növləri üzrə**	**46999,2**	**37269,9**	**55229,1**	**86383,4**	**67296,0**
2.	Dövlət mülkiyyəti	8422,4	8101,7	9194,3	10670,7	11664,4
3.	Qeyri-dövlət mülkiyyəti	38576,8	29168,2	46034,8	75712,7	55631,6
4.	Xüsusi mülkiyyət	7200,8	7852,0	9737,0	10379,0	10823,5
5.	Birgə (qarışıq) mülkiyyət	940,8	972,1	1568,1	1990,6	2263,5
6.	Xarici mülkiyyət	30435,2	20344,1	34729,7	63343,1	42544,6

Mənbə: stat.gov.az/source/industry/az/005

Cədvəl 2-dən də göründüyü kimi, müşahidə altına alınmalı olan ilk hesablama bloku nəticələrini "*bütün mülkiyyət növləri üzrə*" maddəsi təşkil etməlidir:

1. 2019-cü ilə nisbətən 2023-cü ildə sənaye məhsulunun bütün mülkiyyət növləri üzrə artım həcmi 43,2% təşkil etsə də, dinamika sırasının ən yüksək göstəricisi 2022-ci ilə təsadüf edir (2019-cu ilə nisbətən 2022-ci ildə artım - 83,8%);
2. Həmin dövrdə dövlət mülkiyyəti üzrə sənaye məhsulunun artımı 38,5% (və ya 3242 milyon manat) təşkil etdiyi halda, qeyri-dövlət mülkiyyəti üzrə onun artımı 44,2% (və ya 17054,8 milyon manat) olmuşdur;
3. Artımın kəmiyyət ifadələri xüsusi, birgə və xarici mülkiyyət növləri arasında müvafiq olaraq 50,3% (və ya 3622,7 milyon manat), 2,4 dəfə (və ya 1322,7 milyon manat) və 39,8% (və ya 12109,9 milyon manat).

Yaranmış vəziyyət artım həcmləri ilə yanaşı onun səbəblərinin öyrənilməsi, zəruri nəticə və təkliflərin hazırlanması, spesifik çıxış yollarını göstərməkdədir.

Mədənçixarma sənayesi – ölkə iqtisadiyyatinin prioritet

İstiqaməti kimi

Qeyd olunduğu kimi, sənaye ölkə iqtisadiyyatının mühüm sahəsi olmaqla yanaşı, kifayət qədər zəngin tərkibi ilə fərqlənməkdədir. Öz növbəsində istər yeni dəyəryaratma, istərsə də məşğulluq və digər yönlərdə müvafiq istiqamətin əhəmiyyəti danılmazdır. Eyni fikirlər ümumilikdə sənayenin tərkib hissəsi olan mədənçıxarma haqqında da demək mümkündür. (cədvəl 3).

Cədvəl 3. Sənaye istehsalının sahə strukturu, ümumi yekuna nisbətdə faizlə

(*müvafiq illərin faktiki qiymətləri əsasında*)

	Göstəricilər	2019	2020	2021	2022	2023
Bütün sənaye		**100,0**	**100,0**	**100,0**	**100,0**	**100,0**
1	Mədənçıxarma sənayesi	69,9	61,3	65,6	74,9	67,0
2	Emal sənayesi	25,1	31,8	28,8	21,0	27,4
3	Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	4,3	6,0	4,8	3,5	4,7
4	Su təchizatı, tullantıların təmizlənməsi və emalı	0,7	0,9	0,8	0,6	0,9

Mənbə: stat.gov.az/source/industry/az/010_1

Cədvəl 3-dən də göründüyü kimi, tədqiqatın əsas obyekti olan mədənçıxarma da 2019-2023-cü illərdə tərəddüd dərəcəsi (Δ) 2.9% təşkil etsə də, müvafiq dinamika sırasında 2022-ci ilin nəticələrində kifayət qədər əsaslı "dalğalanmalar" müşahidə olunmuşdur (2019-cu illə müayisədə - 5% artım, 2023-cü illə müqayisədə 7,9% geriləmə). Eyni zamanda göstərmək yerinə düşər ki, 2023-cü ildə mədənçıxarmanın fərdi göstəriciləri sənaye istehsalını təşkil edən digər tərkib komponentlərdən dəfələrlə fərqlənməkdədir (emal sənayesindən – 2,5 dəfə, elektrik enerjisi, qaz və buxar istehsalından - 14,3 dəfə, su təchizatı, tullantıların təmizlənməsi və emalından – 74,4 dəfə çoxdur). Bununla yanaşı, araşdırmada mühüm yeri mədənçıxarma sənayesi müəssisələrinin iqtisadi göstəriciləri tutmaqdadır. (cədvəl 4)

Cədvəl 4. Mədənçıxarma sənayesi müəssisələrinin əsas göstəriciləri

	Göstəricilər	2019	2020	2021	2022	2023
1.	Fəaliyyət göstərən müəssisələrin sayı, vahid	331	337	351	367	400
2.	Dövlət	25	25	24	24	22
3.	Qeyri-dövlət	306	312	327	343	378
4.	Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər	901	1036	1091	1143	1229
5.	Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, müvafiq illərin cari qiymətləri ilə, milyon manat	32857,5	22836,3	36222,4	64745,3	45117,5
6.	Sənaye istehsalı indeksi, əvvəlki ilə nisbətən, faizlə (sabit qiymətlərlə)	100,4	93,9	101,4	97,7	97,7
7.	Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, faizlə	69,9	61,3	65,6	74,9	67,0
8.	Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, faizlə	78,5	70,7	76,3	83,8	76,8

Mənbə: stat.gov.az/source/industry/az/014

Cədvəl 4-ün nəticələrindən aydın olur ki, 2019-cu illə müqayisədə 2023-cü ildə:

✓ Fəaliyyət göstərən müəssisələrin sayı artsa da (20,8%), həmin artım əsasən qeyri-dövlət müəssisələrinin hesabına mümkün olmuşdur (23,5%);
✓ Sənaye fəaliyyəti üzrə ixtisaslaşan fərdi sahibkarlıq subyeklərinin sayında 36,4%-lik artım müşahisə olunsa da, sənaye məhsulunun (işin, xidmətin) həcmindəki artım 37,3%-ə bərabər olmuşdur ki, bu da 2022-ci ilin nəticələrinə əsaslanaraq (29,7%) istifadə edilən əsas fondların təzələnməsindən və daha mütərəqqi texnologiyalara keçiddən, fəaliyyətin intensivliyinin yüksəlməsindən irəli gəlməkdədir;
✓ Ölkə sənayesinin qeyri-dövlət sektorunun payı müvafiq illər üzrə 1,9% geriləmişdir ki, bu da emal sənayesinin sahə və ümumiləşdirilmiş göstəricilərində yer almış artımlarla əlaqələndirilməkdədir.

Yuxarıdakı cədvəldən və hesablamalardan göründüyü kimi, ölkə miqyasında mədənçıxarma özünün kifayət qədər böyük potensialı ilə fərqlənməkdədir. Neft və qaz kondensatı xamması ilə ön mövqelərə çıxan həmin sahə hələ uzun müddət ölkə iqtisadiyyatının flaqmanı rolunda çıxış etmək niyyətindədir.

Nəticə

Məqalədə əsas məqsədin ölkənin mədənçıxarma sənayesinə ümumi baxış təmin edilməsində ibarə olunduğu göstərilməkdədir. İcra olunan hesablamalar, istifadə olunan əyani təsvir vasitələrinin informasiyaları 2019-2023-cü illərdə həqiqi vəziyyətin nə yerdə olmasını göstərməkdədir. Əsas və göstəricilərin aşkarlanması və tərəfimizdən ortaya çıxarılaraq sərgilənməsi bəhs olunan istiqamətdə həqiqi vəziyyətlə bağlı müstəqim, zərurət yarandıqda isə həmçinin müqayisəli şəkildə icra olunan tədqiqatlardan xəbər verməkdədir.

Mədənçıxarma sənayesi üzrə həqiqi vəziyyətin öyrənilməsi bəzi hallarda geriləmələrin yer aldığı situasiyalara da şahidlik etməkdədir. Bununla belə istər ölkə hökuməti, istərsə də SOCAR tərəfindən qəbul edilən fəaliyyət proqramları, onların həyata keçirilməsi üsul, mexanizm və sürətləri bir sıra hallarda bilərəkdən, müxtəlif səbəbləri tənzimləyəcək geriləmələrin meydana çıxmasına şərait yaratmaqdadır.

Öz növbəsində, fərqli səbəblərdən yer almış geriləmələrin digər qrupuna da mədənçıxarma sənayesinin təcrübəsində rast gəlinir ki, bu da müvafiq sahə və onun tərkib elementləri üzrə arzuolunmaz geriləmələrin meydana çıxmasına səbəb olmaqdadır. Maliyyə nəticələrinin planlaşdırılmayan və proqnozlara uyğun gəlməyən yekunlarlarına təsirlərlə özünü ifadə edən arzuolunmaz geriləmələr istehsal-fəaliyyət proqramlarının həyata keçirilməsində manea olaraq çıxış etməkdədir.

Bəhs olunan vəziyyətlərin və onların səbəblərinin çoxamilli təsirlərə məruz qoyulması eyni zamanda müasi inkişaf və mütərəqqiliyə doğlu hərəkətlənmənin çoxsaylı elementlərini aktivləşdir-

məkdədir.Bu sırada mütərəqqi beynəlxalq təcrübənin araşdırılması və mənimsənilməsi ilə yanaşı aşağıdakı işlərin icrasını məqsədəuyğun hesab etməkdədir:

✓ rəqəmsallaşma obyekt və istiqamətlərinin müəyyən edilməsi;
✓ zəruri, spesifik quruluşlarla fərqlənən DATA-bazalarının yaradılması;
✓ "yaradıcı" düşüncə üsulları və məhsullarının məqsədyönlü istifadəsi;
✓ ümumi iqtisadi və birbaşa istehsal fəaliyyətlərində çoxsaylı konfiqurativ element və situasiyalardan istifadə olunması;
✓ obyektlər üzrə zəruri nəzəri-metodoloji və sınaq-təcrübə işlərinin planauyğun şəkildə təşkilinin həyata keçirilməsi;
✓ mədənçıxarma sənayesinin hər bir altsistemi, daxili fəaliyyət istiqamətləri üzrə fərdi işlərin təşkili bazasında daha mütərəqqi nəticələrin əldə olunmasına şəraitin yaradılması və s. (Чернышев & Кантиева, 2022, s. 147).

İstər məqalənin əsas hissəsində, istərsə də "nəticələr" bölməsində tərəfimizdən bildirilən fikir və tövsiyyələr axırıncı deyil, "axarıncı" xarakterlə fərqlənməkdədir. Çünki, bəhs olunan sahənin Azərbaycan Respublikasında tərəqqisi, ölkəmizdə qəbul olunan "Rəqəmsallaşma fəaliyyət" və "Süni İntellekt Strategiyası"nın həyata keçirilməsində sistemli fəaliyyətin aparılması və digər əlaqəli işlər ümumilikdə sənayenin, o cümlədən onun mədənçıxarma istiqamətinin mütəmadi irəliləməsinə səbəb olacaqdır.

İstifadə olunmuş ədəbiyyat və mənbələr

Bağırov, M. S. (2023). *Makroiqtisadi tarazlıq: problemlər, qiymətləndirmə və təhlil fəaliyyəti*. Əcəmi Nəşriyyatı.

Kərimov, K. S., & Zeynalova, S. C. (2024). *Layihələrin idarə edilməsi*. ADNSU Nəşriyyatı.

Мокер, Д. (2023). *Рычаг богатства: Технологическая креативность и экономический прогресс* (пер. Н. Эдельмана). Институт экономической политики им. Е. Т. Гайдара.

Duffie, N. A. (2021). *Control theory applications for dynamic production systems*. John Wiley & Sons.

Makgret, R. G., & Makmilan, Y. B. (2022). *Промышленные предприятия: стратегия и «new-product» планирование* (пер. К. К. Ермоловой). Дунай.

Poter, A. L., & Cunningham, S. W. (2018). *Forecasting and management of technology*. John Wiley & Sons.

Кашапов, М. М., Пошехонова, Ю. В., & Кащапов, А. С. (2023). *Инновационные образовательные технологии*. Директ-Медиа.

Чернышев, А. Н., & Кантиева, Е. В. (2022). *Метрология, стандартизация и сертификация в промышленности*. Инфра-Инженерия.

Зарецкий, А. Д., & Иванова, Т. Е. (2018). *Промышленные технологии и инновации*. Питер.

Литвиненко, В. В. (2023). *Модернизация технических систем: методология и технология выбора решений*. Прометей.

State Statistical Committee of the Republic of Azerbaijan. (n.d.). *Industrial statistics*. Retrieved from https://www.stat.gov.az/source/industry/az/002-003

State Statistical Committee of the Republic of Azerbaijan. (n.d.). *Industrial data overview*. Retrieved from https://www.stat.gov.az/source/industry/az/005

State Statistical Committee of the Republic of Azerbaijan. (n.d.). *Statistical indicators*. Retrieved from https://stat.gov.az/source/industry/az/010_1

State Statistical Committee of the Republic of Azerbaijan. (n.d.). *Manufacturing statistics*. Retrieved from https://stat.gov.az/source/industry/az/014

Received: 27.06.2025
Revised: 2.07.2025
Accepted: 18.07.2025
Published: 19.07.2025